# Uşağın inkişafı üçün tövsiyələr

- Uşağınıza sevgi və şəfqət göstərin
- Uşağınızın maraqlarından agah olun və onlara reaksiya bildirin
- Uşağınızın yeni bacarıqları mənimsəməyini təşviq edin

## 1-ci həftə

**OYNA**

Körpənizin rahat görməsi, eşitməsi, əl və ayaqlarının sərbəst hərəkət etdirməsi və sizə toxuna bilməsi üçün imkan yaradın. Onu sakitləşdirərkən, sığallayarkən və tutarkən incə davranın.
Dəri təması önəmlidir.



**ÜNSİYYƏT YARAT**

Körpənizin gözlərinə baxın və onunla ünsiyyət yaradın. Xüsusilə, körpənizi əmizdirərkən buna riayət edin. Çünki yeni doğulmuş körpə sizin üzünüzü görür və səsinizi eşidir.

## 1-ci həftədən 6 ayadək

**OYNA**

Körpənizin görməsi, eşitməsi, sərbəst hərəkət etməsi və sizə toxunması üçün imkan yaradın. Rəngarəng əşyaları yavaş-yavaş hərəkət etdirərək uşağınızın əşyaları və hərəkətlərinizi izləmə qabiliyyətinin inkişafına nail olun. *Nümunə oyuncaqlar:* titrəyən cınqıldaq, zəngli halqa.

**ÜNSİYYƏT YARAT**

Uşağınızla birgə gülümsəyin və gülün. Uşağınızın səslərini və ya hərəkətlərini təkrarlayaraq onunla ünsiyyət yaradın.



## 6-9 ay

**OYNA**

Uşağınıza oynatmaq, taqqıldatmaq və ya yerə atmağa yalnız təmiz, təhlükəsiz məişət əşyaları verin. *Nümunə oyuncaqlar:* plastik konteynerlər, metal qazan və qaşıqlar.



**ÜNSİYYƏT YARAT**

Uşağınızın səs və maraqlarına cavab olaraq reaksiya verin. Onu adı ilə çağırın və uşağın reaksiyasına cavab olaraq öz münasibətinizi bildirin.

## 9-12 ay

**OYNA**

Uşağın sevimli oyuncağını hər hansı bir paltar və ya qutunun altında gizlədin. Uşağın onu tapmasına imkan yaradın. Gizlənqaç oynayın.



**ÜNSİYYƏT YARAT**

Uşağınıza əşyaların və insanların adlarını öyrədin. Ona əllər vasitəsilə fikri necə ifadə etməyi göstərin ("hələlik", "sağ ol" hərəkəti kimi) *Nümunə oyuncaq:* gəlincik.

## 1-2 yaş

**OYNA**

Uşağınıza sıralamaq və konteynerlərə yerləşdirmək üçün əşyalar verin. *Nümunə oyuncaqlar:* iç-içə və üst-üstə qoyulan obyektlər (kublar), konteynerlər və paltar asmaq üçün sancaqlar.



**ÜNSİYYƏT YARAT**

Uşağınızdan sadə suallar soruşun. Onun təbiət, şəkil və əşyalar haqqında danışma cəhdlərinə cavab olaraq münasibət bildirin.



## 2 yaşdan yuxarı

**OYNA**

Uşağınıza əşyaların adını sadalamaqda, saymaqda və onları müqayisə etməkdə kömək edin. Uşağınız üçün sadə oyuncaqlar düzəldin. *Nümunə oyuncaqlar:* müxtəlif rəng və formalı əşyaların çeşidlənməsi (çubuq və ya taxta paneli, pazl oyunu).



**ÜNSİYYƏT YARAT**

Uşağınızı suallara cavab verməyə və danışmağa təşviq edin. Ona hekayələr, şeirlər, mahnılar və oyunlar öyrədin. Şəkil və ya kitab haqqında danışın.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
unicef
İSİM İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Qeydlər: